İftixar

# Dan yeri söküləndə

## İki hissəli qəmli komediya

SÜLƏ SÜLÖYMƏN - Mənim Cəlil Əfəndiyə canım qurban, əmbə xalx məni toya-nişana sürdürəndə, sən də qəbiristanlığamı sürdürürsən, a səni görüm, birdəfəlik qəbiristanlıqlarda qalasan?..

MOLLA QASIM - Qəbiristanlıq olmasa, bə səni harya quyulayacağıq?.. Bəri başdan hazırlığımızı görəsi deyilikmi?..

SÜLƏ SÜLÖYMƏN - A aşıx, sən mənim başım, qırdırramasına bir misri çal, bu geydirmə mollanın acığına gendən bir hərlənim...

MOLLA QASIM - Çal ayə, çal. Çal qoy bu dingiriş bir az dingildəsin, bəlkə ağlı başına gəldi. (*Aşıq Əhsən " Misri" çalır, Sülə Sülöymən qol götürüb, şıdırğı bir rəqs edir.*)

SÜLƏ SÜLÖYMƏN - Ayə, a Muncuq, bir dur görüm a qıldıxsız, dur özünü gösdər... ( *Muncuqlu Mahmud durur. Dərhal Aşıq Əhsən havanı dəyişir."Ruhani" havası çalır. Muncuqlu Mahmud şərab dolu stəkanı başı üstünə qoyub, qol götürüb özünəməxsusluqla ağır-ağır rəqs edir...*) Taburetkanı gətirin ayə, taburetqanı... (*Barbaryan taxta stulu ortaya çəkir, Muncuqlu Mahmudun qolundan tutub stulun üstünə çıxmağa kömək edir. Muncuqlu Mahmud stulun üstündə bir ayağı üstə oynamağa başlayır.*) Gör, eey, gör... Niqalayın sarı yağı, Şura hökumətinin də Sibiri, gör həncəri möhkəmdi canı. Kimdə var aə bu hünər? Biz yerişimizi düz əməlnən yeriyə bilmirik, bu baxtavarın oğlu içib, taburetkanın üsdündə tək ayağı üsdə oynuyur bu yaşında...

BADULADZE - Aşuq, davay erti (*bir*) Bağdaduri dauqare... (*çal*) (*Aşıq Bağdaduri çalır, Cəlil Əfəndidən və Molla Qasımdan başqa hamı oynayır.*) Aşuq, nalevay buynuz... Suleymanas carimas qaumarcos...

( *Sülöymənin cərimısi sağ olsun...*)

SÜLƏ SÜLÖYMƏN - Yox vallah, üz vurmuyun... Mən tova demişəm... Dünənnərisi Qızvəs cijim məni zornan ləyənə basıb, tova suyuna çimizdirib. Mən bunnan sonra qəti içə bilmərəm...

AŞIQ ƏHSƏN - Daa deynən sən oldun çıxdaş. Bundan sonra daha sən kimə lazımsan ki?.. Qulluqda durub pul xərcləməyin yox, papiros çəkmirsən, əlini cibinə salmırsan, yeyib-içməyə də tova dedin... Daa onda inən sonra neynirsən yaşıyıb bu işıxlı dünyada, yıxıl öl dana...

SÜLƏ SÜLÖYMƏN - Vallah düz deyirsən, belə yaşamaxdansa, yıxılıb ölmək yaxşıdı.

MOLLA QASIM - Baho, öyümüz yıxıldı, qapılar qaldı yiyəsiz, bə indi həncəri olajax aə?.. Bə bu xalxın qapılarında kim süllənəjək bunnan sonra?..

SÜLƏ SÜLÖYMƏN - Bə sənin işiyin-gücüyün adı nədi?...

MOLLA QASIM - İndi bunan sonra nağayracaqsan a Sülə Sülöymən?... İşiyin-peşeyin adı nolacaqdı?..

SÜLƏ SÜLÖYMƏN - Heç şey, nağayrasıyam, bunnan sonra daha səni kimi əlimə təsbek alıb, geydirməlik eliyəcəm...

BARBARYAN - (*Buynuzu Sülə Sülöymənə uzadır*) İç Suleli, iç...

SÜLƏ SÜLÖYMƏN - Yox-yox, amanın günüdü üz vurmuyun, vallah içəmmərəm. Allah belimi qırar, tova suyu nə deməkdi, bilirsiniz dana...

AŞIQ ƏHSƏN - Ayə, o tova suyu nə bilir nolan şeydi, a Sülə?..

SÜLƏ SÜLÖYMƏN - Niyə bilmir ayə? Onlar adam döyüllərmi, onların da öz tovası var dana...

BADULADZE - Tova ra aris, dzmo?.. (*Tövbə nədir, qardaş?..*)

SÜLƏ SÜLÖYMƏN - Tova odu ki, a Givi badono, and içirsən ki, bir də bu işi görməyəcəksən, işdi anda əməl eləməsən onda Allah qənim olur adama...

BADULADZE - Vaah, man da keçan il and içdim, mere, ( *sonra* ) ustinnan da çaxir içdim... Aii, (*bax*) halam da içiram. Daq-çto qorixma, iç...

SÜLƏ SÜLÖYMƏN - Yox-yox vallah, üz vurmuyın, içəmmərəm...

AŞIQ ƏHSƏN - Daa özün bil, biz dedik, borcumuzdan çıxdıq... (*İçirlər.*) Amma nahaq içmədin, belə çaxır həlam-həlam ələ düşməz, ölünün gözünə töksən dirilər, beş illikdi, özü də molla qayırıb...

SÜLƏ SÜLÖYMƏN - Ayə, ay öyünüz yıxılsın, a tifaqınız dağılsın, a çıranız keçsin, noolub ayə sizə?... Ayə, mən tova demişəm-demişəm, siz də mi tova deyibsiniz? Bə insafınız yoxdumu?.. Qırılıb batmayıbsınız ha. Belə, yıxın, zornan boğazıma tökün... Ondan sonra görüm Qızvəs cijimin işi həncəri olacaq?..

MOLLA QASIM - Gör bir, sülə ki, sülə, kişinin oğlunun nəfsi o qədər toxdu ki, ağzının suyunu saxlaya bilmir...

SÜLƏ SÜLÖYMƏN - Ayə, a tuxda molla, sən çaxır qayıra bilirsən, mən içə bilmirəmmi? Süzün aə, ahım-günahım mollaya deyib içəjəm...

MOLLA QASIM - Belə, ahın-günahın öz üsdünə tökülsün, sən onsuz da tab gətirəsi sülə deyilsən, onsuz da nəfsini saxlaya bilməyəcəksən. Havaxtsa içəcəksən, nahaxdanca məni günaha batırma... İçirsən, belə cəhənnəmə iç, qara gora iç.

SÜLƏ SÜLÖYMƏN - Ayə, mənmi səni günaha batırıram?.. Ayə, sən döylüdünmü cavanlığında toylarda tamadalıq eyləyən?.. Oturana-durana macal vermirdin, içəndə tuluxnan içirdin... Ona-buna saz kökləmək örgədirdin... İndi həncəri olur aə?..

CƏLİL ƏFƏNDİ - Az danış a Sülöymən, sən get maşınını xodda, gəl şəhərə gedək. Gedək görək qubernator nə deyir, bu nə oyundu açır bizim başımıza?.. Ağzımızı niyə qayaya dirəyir?..

SÜLƏ SÜLÖYMƏN - Sana mənim maşınım da, öyüm-eşiyim də qurban olsun, a Cəlil Əfəndi, əmbə maşını savax-savax nə illah elədim xoddanmadı, öydəkilər dalınnan helləməkdən öldülər... Lap yığıb məni xirtdəyə, ondansa Lal Qüləmin at taçqası yaxşıdı... Elektrik lazımdı maşını xoddamağa. Gedim görüm, mantyor Çəfər öydədimi...

AŞIQ ƏHSƏN - Cəfər öy mantyorudu a sülə, maşın yox...

SÜLƏ SÜLÖYMƏN - Deyirəm bəlkəm başı çıxa, düzəldib xodduya,

CƏLİL ƏFƏNDİ - Yaxşı, sən get mantyor Cəfərin dalınca, mən də bir öyə dəyim, öydə gözləyirəm səni, hə-yoxunu deyərsən...

SÜLƏ SÜLÖYMƏN - Baş üsdə, baş üsdə...

MOLLA QASIM - Əmbə gedib orda-burda sülənmə, kişiyə bir cavab gəti...

SÜLƏ SÜLÖYMƏN - Deyirəm eey... Sülə süləyə sülə deməsə süllənə bilməz... Əmbə, hayıf, hayıf kin içəmmədim... (*Sülə Sülöymən səhnədən çıxır.*)

MOLLA QASIM - (*Cəlil Əfəndiyə eşitdirirmiş kimi*) Badono Barbaryan sən Allah o yetimi burax getsin, yazıxdı...

CƏLİL ƏFƏNDİ - Yetim kimdi ayə?..

MOLLA QASIM - Heeç, Yetim Bayram şikata gəlmişdi, nəçənnik dedi kin hələlik içəridə gözləsin, deyirəm yənı gözləməsin, yazıqdı, getsin inəyini axtarsın...

CƏLİL ƏFƏNDİ - A Barbaryan, burax onu...

BARBARYAN - Xoroşo, tolko Calil Apandinin xatrina... (*İçəri gedir.*)

MOLLA QASIM - Xətrin xoş olsun a nəçənnik... (Tələm-tələsik) Badono Baduladze, bə bu beçərə Quləmin işi həncəri olacaq, gəlib taçqasını aparacaqmı?..

BADULADZE - Halam hirsimi çaxır soyutmadi...

MOLLA QASIM - Sənin hirsini soyutmağa kötük boçqası da bəs eləməz, biz nağayraq.. Yazıxdı, çörəyi onnan çıxır, qoy gəlsin, aparsın...

BADULADZE - Xvale... (Sabah...) İndi yeyib-içiram, vaxdım iyoxdu...

MOLLA QASIM - Ay Badono Baduladze, "hə" deməyə nə vaxt?.. Allah sənə həməşə yeyib-içmək qismət eləsin, bu eli də həməşə var eləsin, onsuz da sənin yeyib-içməyən günün olmur, suvabdı, qoy gəlsin

aparsın, sən eləcənə "hə" de...

**BADULADZE** - Sqazal zavdra, vsyo... Morça... (*Qurtardı...*)

**MOLLA QASIM** - Neynək, sabah olsun, buna da şükür... Hökumət sənsən, nə deyə bilərik. (*Cəlil Əfəndi narahat halda gedir.*)

**BARBARYAN** - (*Yetim Bayramla bərabər polis şöbəsindən çıxır.*) Yetim, qet, oğri tapanda qalarsan, deyarsan.

**YETİM BAYRAM** - Baş üsdə, baş üsdə... Ömrün uzun olsun, Allah hamınızın dadınıza çatsın... İnəkdi, itib cəhənnəmə itsin, təkin salamatçılıq olsun... Bu saat cücəni bişirtdirib gətirirəm... Böyründə də arağı, çaxırı...

**AŞIQ ƏHSƏN** - Cücə-mücə lazım döylü a yetim. Hardan alırsan? Kasıb adamsan, yeri, çıx get...

**YETİM BAYRAM** - Yox-yox, kişiyə söz vermişəm, bu saat gəlirəm... ( *Tələsə-tələsə gedir.* )

**BARBARYAN** - (*Qaşını çatır.*) Aşuq Ax-Ax...

**AŞIQ ƏHSƏN** - Axsan!..

**BARBARYAN** - Xoroşo, pust budet Axsan. Sanin dilin rezat nado.

**AŞIQ ƏHSƏN** - Dilim sənə qurbandı, badono nəçənnik...

**MUNCUQLU MAHMUD** - (*Ayağa durur və əlinin arxası ilə Aşıq Əhsənin ağzının üstündən tərsinə bir şillə vurur.*) Qlöyşa-neqodyay, u tebya svoeqo litsa net, çto-li?.. (*Şillənin vurulması gözlənilməz olduğundan bir an hamı donub qalır və birdən hamı qəhqəhə çəkir.*)

**AŞIQ ƏHSƏN** - (*Karixmış halda*) Bay sənin əlin qurusun. Ağzımı partlatdı ə, çıxdaş olmuş. (*Sakitcə yerində oturur.*)

**BADULADZE** - Malades Muncuq, yuz qram da vur, ubey vsex, ne boysa, ya budu otviçat za tebya... Mejduproçim, eto ne prastoy şapalaqi ha, eto generalsqiy şapalaqi... (*Dambat Dursun səhnəyə daxil olur.*)

**DAMBAT DURSUN** - Nuş olsun a hökümət!.. Nuş olsun a nəçənnik!.. Hamınıza nuş olsun, beş də artıq!.. Dedilər kin məni hökümət çağırıb. Nə qulluğunuz var? Maşınım qarışıq qulluğunuzda durmağa hazıram...

**MOLLA QASIM** - Ayə, a Dambat, bə Cəlil Əfəndiyə deyibsən ki, maşınının təkərləri keçəldi, indi necə qulluqda durursan?..

**DAMBAT DURSUN** - Nəçənniyə təkər də tapılar, hələm o yana da keçər...

**BADULADZE** - Dambat, şen (*sən*) bu qeca harda idin?..

**DAMBAT DURSUN** - Yorğan-döşəyimdə...

**BARBARYAN** - Yorğan-doşak harda idi?..

**DAMBAT DURSUN** - (*Şaşırır.*) Həncəri yanı harda idi?..

**BARBARYAN** - İçari keç, orda har şeyi priznayoş.

**DAMBAT DURSUN** - Ayə, a sizin başınıza dönüm, içəri niyə keçirəm?.. Mən köpəyoğlu neynəmişəm, kimin toyuğuna daş atmışam, kimin inəyinin kəndirini kəsmişəm.

**BADULADZE** - Aaa, san kandir kasir? Znaçit Yetim Bayramin inaki san oğurladi... Naçalnik, bas oni içari. (*Barbaryan Dambat Dursunun qollarını qandallayır.*)

**DAMBAT DURSUN** - Ay cahamat, öyüm yıxıldı... Ayə, dillənsəniz a molla, ay aşığın qara gəlsin, a muncuğun ehsanına qismət olsun, mən heç bu vaxda qədər oğurluq eləmişəmmi? Dillənsəniz!..

**AŞIQ ƏHSƏN** - Bə dambat-dambat orda-burda ağzına gələni danışanda; ay əsgərlikdə çexlərin toyuğunu belə qoynuma soxdum, çoşqanı şinelin ətəyinə belə dürtdüm, deyəndə bə bilmirdinmi ki, bir gün yiyəsi gəlib çıxacaq.

**DAMBAT DURSUN** - Ayə, gör bir bunlar neçə il bundan əvvəl olub, çex köpək oğlu indimi ayıldı? A nəçənnik, vallah hamısını qondarırdım, mən ömrümdə heç bir kərə də oğurluq eləməmişəm. Qurban olum, buraxın məni...

**BARBARYAN** - Keç-keç, içari keç!.. Keç qorak sanin doşak harda idi?..

**DAMBAT DURSUN** - Öyüm yıxıldı ay cahamat, beyjə yuxumu qarışdırmışdım, yuxum çin çıxdı... Arvad köpək qızına dedim ki, yuxunu söylətmə mənə, sabah-sabah yuxuyu söyləməzdər, düşər-düşməzi olar, qandıra bilmədim it qızını... Budu bax, bu da düşər-düşməz... A nəçənnik, vallah mən oğurluq bilən adam deyiləm, bütün kənd məni tanıyır... Qurban olum, balalarıma yazığınız gəlsin, buraxın məni, qapıda bordaq bir erkəyim var, uşağın əsgərliyindən ötrü saxlamışdım, bu saat gedim, gətirim, əllərimnəncə ayağınızın altında qurban kəsim...

**BARBARYAN** - İçari keç dedim... (*İtələyib onu içəri salır.*)

**MOLLA QASIM** - Dambat köpəyoğlu, Cəlil Əfəndinin sözünü yerə salır, kəndin, elin işinnən ötəri maşın sürmür, əmbə bunlara maşını qurban eliyir. Di get, çıx çıxacağını... (*Dul Alı ilə Nanı Kişi dünyanın ən xoşbəxt adamları kimi səhnəyə daxil olurlar. Dul Alı çubuq atının üstündə, Nanı Kişi çalmasına çiçək taxmış, sanki atın tərkinə minmiş kimi, bir əli ilə Dul Alının pencəyinin arxa tərəfinin ətəyindən tutub, bir əlində isə çətir, dal-qabaq çubuq atı çapa-çapa büstü dağılmış bünövrənin dövrəsinə fırlanırlar. Dul Alı çubuq atının yüyənini büstü uçulmuş bünövrənin daşına bağlayır. Nanı Kişi gündən qoruyurmuş kimi çətiri çubuq atın başı üstünə qoyur, sonra çalmasına taxdığı çiçəyi götürüb ləçəklərini bir-bir yolmağa başlayır.*)

**NANI KİŞİ** - Severmi-sevmermi?... Severmi-sevmermi?.. Severmi-sevmermi?... Severmi-sevmermi?.. Severmi-sevmermi?... Severmi-sevmermi?.. Severmi... Sever... Gördünmü, sever çıxdı... Sever çıxdı... (*Bayaqdan bəri hamı sakitcə onları izləyirdi.*)

**AŞIQ ƏHSƏN** - Atamın o qara torpaqda yatan üzünə and olsun, belə, imam haqqı, anamın urfu haqqı, bunlar kefdi eey... Dünya vecdərinə döylü... Nə millət, xalq dərdi çəkirlər, nə də ki, qəbirstanlıq... Adam az qalır, abrına tüpürüb qoşula bunlara... Elə bil on beş yaşında Leyli-Məcnundular, Romeo-Cülyettadılar, Əsli-Kərəmdilər... Gör həncəri qır verirlər bir-birilərinə... Öyün yıxılsın a fələk... Gör dünyada həncəri şeylər olur...

**MOLLA QASIM** - Sən ikicə stəkan da içsən, toşnu dönüb olacaqsan Dul Əhsən...

**AŞIQ ƏHSƏN** - (*Sazda çala-çala onlara tərəf gedir.*)

Oyna, Nanı Kişi, oyna,
Oyna, a Dul Alı, oyna,
Oyna, Koroğlu, oyna,
Oyna, ay Niyar, oyna.

(*Dul Alı ilə Nanı Kişi qol götürüb oynayırlar. Onlar oynadıqca Aşıq Əhsən də onlara qoşulur, daha sonra Baduladze və Barbaryan da oynayırlar. Muncuqlu Mahmud onları tərs-tərs süzür, sonra Baduladze onun əlindən tutaraq onu da rəqsə qoşur. Hamı bərabər, bir ağızdan, xorla oxuyur, qol-qola tutub yallı gedirlər...*)

**MOLLA QASIM** - A köpoğlunun çaxırı... Gör adamı nə günə qoyur... İndi biz nədən bilək ki, bunların hansı Dul Alıdı, hansı Nanı Kişi?.. Heç birini o birindən seçmək olmur... Qurban olduğum Peyğəmbər Əleyhüssəlam (*salavat çevirir*) ona görə bu içgini haram buyurur dana... Gör bir, bayaqdan düzəməllicə adam olan Aşıq Əhsənin ağzı əyilib nə günə düşdü... Hələm sən bu qoca kafdara, bu Muncuxlu danabaşa bir bax... Çox ağıllıydı, bir az da içdi, ağlı lap qar suyuna döndü...

**MUNCUQLU MAHMUD** - A Molla Qasım, sən niyə oynamırsan?.. Sənə içməyi qadağan eliyiblər, oynamağı ha yox...

**MOLLA QASIM** - Görüm, Allah səni elə dərdə salsın ki, heç dərdinə dərman tapılmasın...

**MUNCUQLU MAHMUD** - İnnən belə mənim ölməkdən savayı nə dərdim olasıdı? O da görürsən ki, Allah hələ məsləhət bilmir... Tak çto, tantsuy molla, tantsuy! Tantsuy, kak çelovek. Skolko mojno bıt geydirmə molla? Bir az da nado bıt nastoyaşim çelovekom...

**MOLLA QASIM** - Sənin kimi çelovek olmaqdansa, geydirmə də olsa molla olmaq şərəflidi, a şərəfsiz...

**AŞIQ ƏHSƏN** - Şərəfnən işiniz olmasın ayə, Nanı Kişi başınızı əzər.

**MOLLA QASIM** - Ayə biz Nanı Kişinin cijisi Şərəfi demirik, eey... Muncuxlu Mahmudun neçə illərdi Urusyətdən belə hüt vurub axdardığı, hələm də tapa bilmədiyi şeydən danışırıq.

**AŞIQ ƏHSƏN** - A nazdı-qəmzəli Nanı kişi, Dul Alı atını təzələdi, bə sənin zontikini təzələmirmi?..

**DUL ALI** - Ayə, elə bilirsən Ağ Mələk qoyur təzələməyə... Qoymur eey... Hər gecə Nanı kişiyə deyir kin, sizi göyün yeddinci qatına aparanda orda ayrı cürəsini alacam... Sana oranınkı layiqdı deyir...

**MOLLA QASIM** - Nə vaxt olacaq bə o xeyir iş?

**DUL ALI** - Vaxdını özü deyəcək.

**AŞIQ ƏHSƏN** - Gedəndə xəbər eliyin, sizi hay-haraynan, saznansöznən, üzcırma, saçyolma təntənəsinnən yola salaq.

**DUL ALI** - Yox-yox, hay-haray-zad lazım döylü... Ağ Mələk özü orda hay-haray da saldıracaq, toy da eliyəcək bizə... Deyir kin elə eliyəcəm, heç xalxın xavarı olmuyacaq sizin hay-haraydan göyün yeddinci qatına aparanda...



**AŞIQ ƏHSƏN** - Ayə, sən kirimişcə bizə göz-qaş elə, bəlkəm Muncuxlu Mahmudu da yola saldıq siznən bir yerdə. Bə toyda xalxın layiqlı bir nümayəndəsi olası döylümü yanınızda?..

**DUL ALI** - Yox-yox, ağrın alım, üz vurma, siz içəndə dava salırsınız toyda. Həm də, mən yalan danışa bilmərəm Ağ Mələyə. Çünki, orya hər adamı buraxmırlar deyir, Ağ Mələk.

**AŞIQ ƏHSƏN** - Ayə, bə hay-haraydan sonra qırmızı almanı kim oynadacaq mağarda?..

**DUL ALI** - Abrın-həyan tökülsün, ay abırsız, bütüncənə abrımızı tökdün... A Molla Qasım, bə bu vələduzna havaxt öləcək, görəsən?..

**MOLLA QASIM** - Yernən-göynən əlləşən sənsən, mənnən niyə soruşursan?

**DUL ALI** - Bə sən molla döylüsənmi, düzünü sən bilərsən dana.

**MOLLA QASIM** - Görək, onsuz da hələm adam basdırmağa yerimiz yoxdu, qəbirstanlıq dolub.

**DUL ALI** - Ayə, o döylümü Pir Məmmədin ətəyı, həm havalı, həm də yaraşıxlı, güllü-çiçəkli. Əsl aşıx qavırsannığıdı...

**AŞIQ ƏHSƏN** - Sən heç narahat olma, oranı sənin Abı qağan alıb, məni basdırmağa izn verməz, versə-versə bəlkəm bircə səni basdırmağa izn verə, sənin qardaşağandı...

**DUL ALI** - Sən onu nənənə dərd eləmə, sən ölməyində ol, Abı qağam bu gün gələcəkdi, mən izn alaram...

**BADULADZE** - Badono Rapiq, orda buynuz est, nalevay, prinisi adday Dul Ali, pust pyot, aşiği bağladi, halaliyğos... (*Halalı olsun...*)

**MOLLA QASIM** - Bə sənin hinduşqaların hansı cəhənnəmdə qaldı, a Nanı Kişi? Bircə onlar çatmır, çağır gəlsin onlar da oynasın, onsuz da indi siznən onların heç bir fərqi yoxdu, hamınızın ağlı hinduşqa ağlına dönüb.

**NANI KİŞİ** - A təpənə kül, mənim hinduşqalarım öymüzü tanıyır, otduyub doyannan sonra, kəsə yolnan özdəri bir-başa öyə gedirlər, səni kimi sülə-sülə ölü yerləri ha gəzmirlər...

**DUL ALI** - Oyna, a molla, molla, Bu kəbini qolla-qolla,

**HAMI** - Oyna, a molla, molla,
Bu kəbini qolla-qolla...

**AŞIQ ƏHSƏN** - Oyna, Nanı Kişi, oyna,
Dul Alı qurban boyuna
Oyna, a Dul Alı, oyna,
Qoy ellər gəlsin toyuna.

**HAMI** - Oyna, Nanı Kişi, oyna,
Dul Alı qurban boyuna
Oyna, a Dul Alı, oyna,
Qoy ellər gəlsin toyuna.

(*Maşın siqnalının səsi eşidilir, hamı səsə tərəf boylanır...*)

**AŞIQ ƏHSƏN** - Deyəsən Sülənin maşını xoddandı...

**MOLLA QASIM** - Yox, bu siqnal onun siqnalına oxşamır... (*Səhnəyə yanlarında təxminən bir yaşında balaca bir uşaq olan kişi və qadın daxil olur. Kişi uzun saçını arxadan qadın sayağı bağlamış, nazik bığları yalnız çənəsində olan saqqalına qədər uzanan, uzun bakin-bardlı, yaxası qarnına qədər açıq olan güllü köynək geyinmiş, sinəsinə və qoluna qızıldan zəncir bağlamışdır. Qadın isə sadə çitdən uzun ətəkli don geyinmiş, sadə görkəmli rus qadınıdır.*)

**XIDIR** - A millət, a xalx, vsem bolşoy zdrasdi...

**NATAŞA** - Skolko raz mojno qovorit, tak ne privetstvuyut! Vot kak nado privetstvovat: "Vsem bolşoy privet!"

**XIDIR** - Xvatit, pered vse ne nada menya osqarbit...

**NATAŞA** - Tfu, yolki-palki... Oskorblyat...

**XIDIR** - Vsem bolşoy oskarblyat... eeh, tfu... Vsem bolşoy privetto, a millət...

**AŞIQ ƏHSƏN** - Ayə, bu Xıdır döylümü, a dağlar?..

**MOLLA QASIM** - Yox ayə, bunun harası Xıdırdı. Xıdır kənddən çıxanda mağıl adam şiklində çıxıb... İndi birdən-birə nooldu ki, ona, bu livaya düşdü? Xıdır döylü yox... Görmürsənmi yanında haxcığı da var. Bu yəqin ki, o biri kəndə gedir, yol azandı...

**XIDIR** - Əssəlamün əlöyküm, a duxda molla... Zdrasdi, a cahamat... Zdrasdi, a Jemçujinni Mahmud... Qamarcobat badono Baduladze... Kefin hinçosem a nəçənnnik?.. Sazına yaxşı, yağlı bir uruset danası kəsim a aşıx... Ayə, a Dul Alı, a Nanı Kişi, bə sizi Ağ Mələk hələm aparmayıbmı o dünyaya?.. (*Nanı Kişi "əcnəbi" kişi xeylağını görüb dərhal yaşmaqlanır.*)

**DUL ALI** - O dünyəyə gedib-gələnə sən oxşuyursan, a qara vurğunnu... Heç salamat gəlib çıxmıyaydın, bu dünyaya... Elə bil qır qazanınnan qaçıbsan, sarı-sarı mələklərin qanadında...

**MOLLA QASIM** - Ayə, bu sənsənmi, a Xıdır?.. Ayə, sən nə livadasan, a yığvalı qaranın oğlu? Səni kim bu livaya salıb?..

**XIDIR** - Noolub aə, mənim livama? Sənin livannan pisdimi?

**MOLLA QASIM** - Ayə, sənin saçını kim hörüklüyüb, ayə?..

**XIDIR** - Sən belə şeyləri qanammazsan, sən haranı görübsən kin nə qanasan... Bilirsənmi, Urusyətdə qızdar ölür mənim hörüyümnən ötəri.

**MUNCUQLU MAHMUD** - Ayə, a millət, a cahamat, ayə, gedib Rusiyada adımızı batırıb gələn kozyolu adına layiq vstreçayte, ayə... Mənim adım-sanım variydı o yekəlikdə Rusiyada... Ex tı, falşivıy Xıdır... Hələm Nikolayın dövründə, mən tələbə olanda, elə ki, auditoriyaya girirdim, o boyda universitetin karidoru lərzəyə düşürdü... Xot, meditsinskiy fakultet, xot yuridiçeskiy... Xot, oxumaqda, xot, po vneşnost...

**XIDIR** - Axırı nooldu?.. Budra döylümü, gözümüzün qabağındasan dana... Baznakomsya, Nataşa s millət...

**NATAŞA** - Zdrastvuyte, qospoda. Davayte poznakomimsya. Ya-Nataşa, jena qospodina Xıdıra, a eto naşa doçka, Daşa-Daşenka...

**BADULADZE** - (*Cəld özünü düzəldib qabağa çıxır və hörmətlə əl uzadır*), Me (*Mən*) qosbadin Givi Baduladze... Pristavitel qlava qasudarstva etoqo derevnya...

**NATAŞA** - (*Əl tutub görüşür.*) Oçen priyatno.

**BARBARYAN** - A ya qospadin Rapik Barbaryan... Kak vidna...

**AŞIQ ƏHSƏN** - Qaspadin nəçənnik...

**NATAŞA** - (*Əl tutub görüşür.*) Oçen priyatno.

**DUL ALI** - Gör bir həncəri qloyşalanır nəçənniyə... Əylən bir, qoy Abı qağam gəlsin...

**AŞIQ ƏHSƏN** - Mən də kəndin aşığı... Salavey...

**NATAŞA** - (*Əl tutub görüşür.*) Oçen priyatno. Ya lyublyu Solovyov.

**AŞIQ ƏHSƏN** - Salavyov yox, Salavey...

**MOLLA QASIM** - (*Uzaqda qayanıb.*) Molla Qasım!.. Kəndin mollası...

**NATAŞA** - (*Əl uzatmadığını görüb özü Molla Qasıma yaxınlaşır və əlindən tutub görüşür.*) Oçen priyatno. Pro vsex vas mne Xidir mnoqo rasskazıval.

**DUL ALI** - Öyün yıxıldı a molla, bütün kəndə car çəkəcəm kin molla murdarrandı...

**NATAŞA** - Navernoe, tı-Dul Ali. Tebe osobıy privet. (*Dul Alıya əl uzadır, Dul Alı qaçıb çubuq atını minir.*)

**DUL ALI** - Yox-yox, mən sana əl verə bilmərəm. Ağ Mələk məni göyün yeddinci qatına aparmaz, deyər kin sarı mələk səni murdarrıyıb...

**MOLLA QASIM** - Ayə, nə Ağ mələk-Sarı mələk salıbsan, adamdı görmürsənmi, qonaxdı, görüş, ayıbdı...

**DUL ALI** - Sən özün mundarlanıbsan, məni də mi mundarramaq İstəyirsən? Bircə onu görmüyəcəksən... Min tərkimə, a Nanı Kişi...

**NANI KİŞİ** - Gedək, Günəşdən muştuluq alaq... Deyək kin Xıdır gəlib, sarı-sarı mələhlərin qanadında... (*Nanı Kişi onun arxa ətəyindən yapışır, çubuq atı çapıb səhnədən çıxırlar.*)

**NATAŞA** - Kakie oni sladkie! da?..

**XIDIR** - A on naş tot samıy general. Yox-yox, generalisimus. V naş derevnye on naş Stalin...

**MUNCUQLU MAHMUD** - A tı zatknis. Luçşe nauçis pa-russki qovorit, bez qramotnıyt kozyol. Tem bole, çto u tebya takaya oçarovatelnaya jena...

**NATAŞA** - Ox tı, naş lyubimıy, doroqoy qeroy, samıy lyubimıy çelovek v naşem dome... Klyanus, ya prosto v şoke... Daşenka, vot on-deduşka Jemçujnıy Maxmud. Pomniş, otets tebe rasskazıval?

**XIDIR** - Ayə, a Muncuq, bə heç təzə ordennən midaldan bir şey vermiyiblərmi sana?.. Muncuğun artmayıbmı heç? Yenə generalsanmı hələm, yoxsam generalisimus verdilərmi sana?..

**AŞIQ ƏHSƏN** - Veriblər, bu günnərisi Stalin çağırtdırmışdı şəhərə, gedirdi almağa, əmbə andır şəhər avtobusu qırıldı, də o dünyada gözü yollarda qalıb, Muncuğu gözləməkdən.

**NATAŞA** - (*Muncuqlu Mahmuda yaxınlaşır, əl uzadır, Muncuqlu Mahmud Nataşanın əlini öpür.*) Vot, djentlmen... Krasavçik... Xıdır, kakoy on eleqantnıy, pravda? Ya prosto v şoke...

**MUNCUQLU MAHMUD** - (*Xüsusi ahənglə və uca səslə*) Dobro po-

jalovat v naşu derevnyu... (*Əyilib Daşanın da əlindən öpür.*)

**NATAŞA** - Tı smotri, a?! Prikolno, pravda? Ya vlubilas v neqo!

**BADULADZE** - Aba, davlyot, (*Di, içək.*)za udaçnıy vozvroşeniya uvajaemıy Xıdır, za naş uvajaemıy qosdi... Davay-davay, bıstra nalevay, aşuq... (*Obolo Bəşir bir əlində qamçı, o biri əlində şüşə qab, belində xançal, ayağında xrom çəkmə, əynində uzunqol, köhnə dəbli üç düymə köynək, qalife şalvar, başında buxara papaq, damağında uzun müşdükdə filtirsiz papiros tüstülənə-tüstülənə səhnəyə daxil olur.*)

**OBOLO BƏŞİR** - Kəndin millətinə yaloylu salam!.. (*Əlindəki şüşə qabı Baduladzeyə uzadır.*) Badono hökümət, dünənnərisi nəçənniyin payını vermişəm, bu da sənindi. O taydan gətirmişəm, fısqırıx şeydi. Adamın tüsdüsünü təpəsinnən çıxardır...

**AŞIQ ƏHSƏN** - Ayə, yalannan az təriflə, qaraçı atını tərifliyən təkin. Savaxdan hortdadırıq, əmbə tüsdümüz hələm təpəmizdədi.

**OBOLO BƏŞİR** - Sənin təpəndə Avtartet Abı tüsdü qoyubmu ki, çıxa...

**AŞIQ ƏHSƏN** - Yenə beyjə kimin atını kişnədibsən, kimin eşşəyini anqırdıbsan, kimin qoyununu mələdib, kimin quzusunu mələr qoyubsan, kimin toyuğunu qaqqıldadıb, kimin hinduşqasının damazdığını kəsibsən, kimin inəyini buğasız qoyub, kimin...

**OBOLO BƏŞİR** - İmir Heydar ağanın ceddi haqqı heç kimin... Beyjə mən heç kənddə olmamışam... İnanmırsınız arvad-uşaxdan soruşun...

**MOLLA QASIM** - Atamın goru haqqı, imam haqqı, o ki, arvad-uşağı şahid gətirdi, yüz faiz kiminsə töyləsində yasdı bu günnərisi...

**OBOLO BƏŞİR** - Onda sən tez papağı qoy oraya... Məclisi başsız qoyma, deynən axşama da plov bişirsinlər... Vallah, dünənnərisi mən şəhərə getmişdim... Eh, sizə onnan danışım... Ayə, mən gör neçə ildi kin şəhər üzü görmürdüm, macalım yox idi dana...

**MUNCUQLU MAHMUD** - Sluşayte, xalxın tölələrinin bacalarının deşiyini ölçməkdən səndə macal hardan olsun?..

**OBOLO BƏŞİR** - Elə demə a Muncux, acığımı tutdurma, yoxsam əlimnən xata-zad çıxar...

**MUNCUQLU MAHMUD** - Tı mne ne uqrojay, vse ravno mənim heş nəyim yoxdu...

**OBOLO BƏŞİR** - Niyə, mən çoşqa əti də yeyirəm...

**MUNCUQLU MAHMUD** - Tı çto, xoçeş Rassiyanan otnoşeniya isportit? Ya ne budu otveçat za tebya? Tı je xoroşo znayeş, çto Lyuda oçen razozlilas. Ona nikoqda tebya ne prostit!

**OBOLO BƏŞİR** - Deyirəm görəsən sən nə vaxta qədər bu Urusiyanın, uçitelnitsa Lyudanın kölgəsində yatacaqsan? Qurban olasan Urusyətə, qurban olasan Lyuda məlliməyə, yoxsa çoşqaların çoxdan xorullamışdı...

**MUNCUQLU MAHMUD** - Qospodın Barbaryan, u menya est jaloba. Eqo nado posadit, pryamo seyças! İli tı eqo posadi, ili ya eqo zastrelyu, posadı etoqo podletsa!

**BARBARYAN** - (*Obolo Bəşirə göz vurur*) Smirna!.. Na uçaskovıy punkt şaqomarş! Rast, dva... (*Durub otağına tərəf gedir, Obolo Bəşir onun arxasınca addımlayır. Hər ikisi polis şöbəsinə girirlər.*)

**XIDIR** - Ayə, a Muncuqlu Mahmud, bu dəfə gunahınnan keç, bizim xətrimizə aminisdiya ver, za çest novoye jitelnitsı...

**MUNCUQLU MAHMUD** - Otstavit. Pust jivet. Eto prosba Xıdıra. No pust brosit vorovat...

**MOLLA QASIM** - Ayə, qoysanam oğurluya... Onsuz da özü ha yemir, ona-buna yedizdirir... (*Göz-qaşla Barbaryanı, Baduladzeni göstərir.*) Atamın goru haqqı, biləm ki, oğurluyub özü yeyəcək, deyərəm ki, halal-halal xoşu olsun... Nolar, el, eldən yeyər... (*Barbaryanla Obolo Bəşir az keçmədən polis şöbəsindən çıxırlar.*)

**OBOLO BƏŞİR** - Bıy, bu Xıdır döylümü, a millət?..

**XIDIR** - Xıdırdı, Xıdır...

**OBOLO BƏŞİR** - Ayə, adam səni gecə tövlədə görsə zəhri yarılar, a çıran keçsin... Urusdar səni nə livaya salıb, a tifağı dağılmış?.. Hörüyünə-zadına baxın bunun, daylax quyruğuna oxşuyur...

**BADULADZE** - Şen sada xar, Obolo?.. (*Sən haralardasan, Obolo?..*)

**OBOLO BƏŞİR** - Vallah, şəhərə getmişdim, a hökümət. Şəhərdə nələr varıymış, a hökümət?.. Şəhər bir görəcək imiş, a hökümət... Ayə, ömrümdə görmədiyim şeylər gördüm...

**AŞIQ ƏHSƏN** - Ayə, sən tölədən başqa harda olubsan ki, nə görəsən?

**OBOLO BƏŞİR** - Mən tez-tez qonşu kənddərdə də olmurammı?.. Heş oralarda da belə şey görməmişəm...

**AŞIQ ƏHSƏN** - Sən qonşu kəndlərdə gecələr olursan, nə görəcəksən?

**OBOLO BƏŞİR** - Deməli, elektriçkadan düşəndə ayıb da olmasın su başına çıxmaq istədim... Özümü cavannığımda getdiyim yerə verdim... İçəri girmək isdiyəndə gördüm qapıda bir arvad durub, elə bildim səhv gəlmişəm, əmbə baxdım kin, yoox, həməşəki "M" hərfi divardacana durur, heç şey qanammadım... Sən demə arvad qapıda durub, içəri girənlərdən pul yığırmış... Təpəmnən tüsdü çıxdı... Üzümü çöndərdüm uçux divara, dedim, sana qurban olum, a dağlar, görəsən bu gedişatnan, bu hesabatnan mənim sizə nə qədər borcum olar?.. Görün dünyə həncəri xarab olub... Oydu ki, elə ordacana əlimi basıb sinəmə dağlara belə dedim:

Sana mənim borcum qalıb,
Verməliyəm öyüm, dağlar.
Hər yurtdan-yuvadan əzəl,
Elim, obam, köyüm, dağlar...

**MOLLA QASIM** - Səni görüm xəjələt olasan, a kəndin xəjələt daşı...

**SÜLƏ SÜLÖYMƏN** - (*Sülə Sülöymən özünəməxsus hay-küylə səhnəyə daxil olur.*) Hanı ayə, ayə, hanı ayə bu qıldıxsız?.. Bay-bay-bay. Ayə, bu Xıdır döylümü, a dağlar? Öyün yıxılsın a fələk, Xıdır da gəlib çıxarmış. Elin-obanın layiqlı oğluna, şərəfli-şöhrətdi oğluna, yiyib-içən oğluna gurultulu, hay-haraylı, yekə bir el salamı! Özünə də, dalına düşüb gələnlərə də...

**XIDIR** - Elin-obanın surfalarının yaraşığı Süləyə eşq olsun!..

**SÜLƏ SÜLÖYMƏN** - Eşq camalın olsun!.. İndicənə eşitdim gəldiyini... Başın haqqı, eşidən təkin qaymax kimi çaxırı stolda qoyub, tüpürdüm dabanıma, sənnən görüşməyə gəldim... Ayə, sənin surna-sufatına noolub, Allahsız? Üzünü-gözünü iki tula yalasa doymaz... Ayə, gəl bir səni gəmirtdiyim, a qıldıxsız... (*Qucaqlaşırlar, öpüşüb-görüşürlər, qol götürüb özlərinə məxsus şəkildə bir-birinə çiyin vura-vura rəqs edirlər.*) Ay-bay-bay-bay-bay... Bə bunlar kimdi, a qıldıxsız?.. Bunları da ordanmı gətiribsən, a Xıdır? Ayə, bu nə yaxşıcana şeydi, hardan tapıbsan, a qıldıxsız bunu?.. Deyəsən dalı lafetdi, belarusdandı... Ayə, gətirirdin-gətirirdin, birciyni də bizə niyə gətimirdin?

**XIDIR** - Ayə, ləyaxlı danış, bu onlardan döylü, bu, külfətdi, görmürsənmi, qızım da var... Özü də bu belarus döylü, a sülə, bu urusdu, özü də monqolnan qarışığı var. Həm də yekə biznesmendi, kəndə gəlib ki, kəndin bulaqlarının suyunu potulqalara doldurub dünyanın hər yerinə daşısın. Qiyas bulağını, Təhməz bulağını, Aydəmir bulağını, Eldar bulağını, Pir Məmməd bulağını, hamısını yığıb aparacayıq. Heş olmasa qazandığı puldan bir az da kəndin yollarını qayırtdırmağa xərclədərik.

**SÜLƏ SÜLÖYMƏN** - İzdrasdi, a gəlin bajı, daa nağayrax, gəlibsən dana... Belə sən xoş gəlib, safa gətiribsən... Başın haqqı düz eliyibsən, a Xıdır... Ayə, kişinin ki, hər eldə, hər obada bir arvadı olmadı, daa o nə kişidi? Deyəsən bu da qızındı eləmi?.. Ayə, a qıldıxsız, heç olmuya oğlan doğoydu...

**XIDIR** - Allahın verdiyi paydı dana, hələm buna da şükür...

**SÜLƏ SÜLÖYMƏN** - Bə nədi, yoxsam Lyuda məllimə kimi qısır qalseydı həncəri olaceydı?.. Budu bax, bu Muncux...

**MUNCUQLU MAHMUD** - Zatknis, kozyol, mənim adımı çəkib, öyə dava salma.

**MOLLA QASIM** - Öyə bax bir, davaya bax bir... Elə bil on beş yaşı var... Bə xalxın öyü-eşiyi yoxdumu, hərənizin dalınıza bir urus düşüb, gəlib, ortalığa qırğın salır... O yekəlikdə Urusyətdən gözdəri doymur, gəlib buraları da zəbt eləmək isdiyirlər. Budu bax, gəlib... Gəlib ki, kəndin bulaxlarının dürr kimi suyunu daşıyıb yerə-göyə satsın... Bə biz nə içəciyik?..

**SÜLƏ SÜLÖYMƏN** - Qorxma, ayə, qorxma, sana da qalacaq içməyə... Yaman da elə içməkdən halın bəri gəlib... Neçə əsrlərdi havayıdan düzə axmırmı bulaxların göz yaşı təkin suyu? Nə vaxt birciyinin qaşında oturub ürəknən bircə stəkan su içibsən? İndi nə yaman mətdəndi birdən-birə bu bulaqların suyu?..

**MOLLA QASIM** - Harda zəhərrəndin, a sülə, iki daşın arasında? Bə şəhərə gedəsi döylüdünmü, a tovalar sana qənim olsun?..

(*Davamı növbəti sayımızda*)

***P.S. Əvvəli jurnalımızın ötən saylarında***